# Azərbaycan televiziyası: problemlər və perspektivlər



**Respublikamız demokratik dəyərləri və azad bazar iqtisadiyyatı prinsiplərini rəhbər tutaraq sivil və bəşəri yolla inamla, sürətlə inkişaf edir. Söyləməyə lüzum yoxdur ki, bu inkişafın əsas göstəricilərindən biri də ölkəmizdə tətbiq edilən mətbuat və söz azadlığıdır.**

**Azərbaycanda bu azadlıq bərqərar olunmaqla yanaşı, onun mövcudluğu üçün təkmil qanunvericilik bazası da yaradılmışdır. Azad mətbuatın və sözün inkişafına daim qayğı göstərilir.**

Ümummilli liderimiz Heydər Əliyev hələ 11 il əvvəl - 1998-ci il avqustun 6-da son dərəcə müdrik bir addım ataraq mətbuat üzərində olan senzuranı ləğv etmişdir. Əslində Azərbaycanın müstəqil mətbuatının tarixi məhz həmin dövrdən hesablanmalıdır.

Ulu öndərin azad sözün və mətbuatın inkişafına yönəlik siyasəti bu gün möhtərəm Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Belə ki, sonrakı dövrlərdə azad sözün inkişafı üçün möhkəm qanunvericilik bazasının yaradılması ilə bahəm mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi, əlavə dəyər vergiləsinin mətrindən azad olunması, müstəqil qəzetlərin mətbəələrə olan borclarının əvvəlcə dondurulması və sonra ləğv edilməsi, dəfələrlə maddi yardımların göstərilməsi, Milli mətbuatımızın yubileyinin keçirilməsi, jurnalistlərə dövlət mükafatlarının verilməsi, onların fəxri adlara layiq görülməsi azad sözün möhkəmlənməsinə olan diqqətin bariz təcəssümüdür.

Təbii ki, televiziya və radioların fəaliyyəti də azad sözün göstəricisidir.

Hazırda respublikamız KİV-lərin kəmiyyətinə görə MDB və Şərqi Avropa ölkələri arasında lider mövqelərdən birini tutur. "Bu gün Azərbaycanda 4 minə yaxın KİV müvafiq dövlət orqanında qeydiyyatdan keçmiş və ya uçota götürülmüşdür. Ölkədə yüzlərlə qəzet, jurnal, informasiya agentliyi,

11 radio kanalı, 8 ümumrespublika, 14 regional və 13 kabel televiziya kanalı fəaliyyət göstərir"(1).

Azərbaycanda kütləvi informasiya vasitələrinin, xüsusilə televiziya və radio kanallarının inkişaf tarixi göstərir ki, onlar Azərbaycan ədəbi dilinin yaranması və inkişafında, xalqımızın maarifinin yaranması və inkişafında, xalqımızın maariflənməsində, mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin təbliğində, dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyalarının yayılmasında əvəzsiz rol oynamışlar. Bundan başqa, ölkədə gedən ictimai-siyasi, iqtisadi və mədəni quruculuq prosesləri, dövlət siyasətinin mahiyyətinin xalqa çatdırılması, cəmiyyətin aktual problemlərinin müzakirəsi, onun nəbzinə uyğun verilişlərin hazırlanması da televiziya və radio üçün daim prioritet istiqamətlər təşkil etmişdir.

Müstəqillik dövründə respublikamızda teleradio yayımı böyük inkişaf yolu keçmiş, nəzərə çarpacaq uğurlar əldə etmişdir. Cəmiyyətdə liberal dəyərlərin, demokratikləşmə prosesinin dərinləşməsi, həmçinin fikir plüralizmi, söz və mətbuat azadlığının güclənməsi media qurumlarının müstəqilliyini, sərbəst fəaliyyətini şərtləndirən mühüm amillər olmuşlar.

Ölkəmizdə teleradio fəaliyyətinə dair qanunvericilik təkmilləşdirilmiş, onun hüquqi-normativ bazası qabaqcıl dünya və Avropa standartlarına uyğunlaşdırılmış, müasir şəraitə və bazar iqtisadiyyatının tələblərinə cavab verən qaydalar, fəaliyyət normaları müəyyənləşdirilmişdir.

2002-ci ildə "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, 2003-cü ildə televiziya və radio yayımı sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin etmək və bu fəaliyyəti təmizləmək məqsədilə Milli Televiziya və Radio Şurası yaradılmışdır.

2004-cü ildə "İctimai Televiziya və Radio Yayımları haqqında" Qanun qəbul edilmiş və bir il sonra İctimai Televiziya və Radio Yayımları Şirkəti fəaliyyətə başlamışdır. Özəl televiziya kanalları ölkənin teleradio məkanını daha da zənginləşdirmiş, müasir informasiya-kommunikasiya texnologiyalarının, son texniki nəaliyyətlərin tətbiqi proqram siyasətinin həyata keçirilməsinə, keyfiyyətli verilişlər hazırlanmasına kömək göstərmişdir.

Televiziya kanallarının texniki imkanları həddsiz dərəcədə genişlənmiş, qarşılıqlı əlaqə və kommunikasiyanın yeni formaları yaradılmış, onların operativliyi yüksəlmiş, təsir dairəsi genişlənmişdir. Artıq ümumrespublika kanalları peyk vasitəsilə dünyanın ayrı-ayrı bölgələrinə yayımlanmağa başlamışdır. Bütün bunlar fərəh doğuran amillərdir. Onu da xüsusi vurğulamalıyıq ki, həyata keçirilən bu çoxsaylı tədbirlərin nəticəsində indi televiziya və radio hər evə, hər ailəyə daxil olmuş, insanların gündəlik həyatının ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

Amma onu da etiraf etməliyik ki, həyata keçirilən bu qədər möhtəşəm layihələrin, qəbul edilən müdirik qərar və qanunların müqavilində televiziya və radiolardan gözlənilən uğur yetərincə deyil, hələ də onların fəaliyyətlərində ictimaiyyəti qane etməyən cəhətlər çoxdur, nöqsan və çatışmazlıqlar kifayət qədərdir.

Sual olunur: "Azərbaycan televiziya məkanı niyə bu vəziyyətə düşüb?!" Xüsusi narahatlıq doğuran bu suala təbii ki, birmənalı şəkildə cavab vermək qeyri-mümkündür. İctimaiyyətin ayrı-ayrı təbəqələri arasında sorğu apararkən bunu daha aydın duyursan. Fikirlər rəngarəng və müxtəlifdir. Onlar fərdi və subyektiv xarakter daşıyır. Bununla belə üst-üstə düşən, obyektiv xarakter daşıyan rəylər də az deyil.

Əvvəla qeyd olunmalıdır ki, KİV azadlığı plüralizminin inkişafında, şəffavlığın təmin olunmasında mühüm şərt olsa da onları müəyyən neqativ halların təsirindən sığortalıya bilmir. Odur ki, onun özünütənzimləmə mexanizminin formalaşması, elektron KİV sahəsində dövlətin tənzimləyici funksiyasının həyata keçirilməsi zərurətə çevrilir. Son dövrlər Azərbaycanın televiziya və radio kanallarının fəaliyyətində nöqsan və çatışmazlıqların artması bu məsələnin dərindən araşdırılmasını, problemlərin aradan qaldırılması üçün əməli tədbirlərin həyata keçirilməsini zəruri edir.

Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı, beynəlxalq aləmə uğurlu inteqrasiya, beynəlxalq münasibətlər sistemində mövqelərini möhkəmləndirməsi ilə televiziyaların mövcud səviyyəsi arasında uyğunsuzluq var. Televiziyaların konsepsiyası olmadığına görə tamaşaçı eyni tipli verilişlərə, bir-birinə oxşayan aparıcılara baxmalı olur.

Ekranda ciddi proqramlar, mövzular yox dərəcəsindədir. Bu gün özəl televiziyalarda gedən verilişlər insanların zövqünü korlayır. Xəbərlərin tamaşaçı və dinləyicilərə operativ şəkildə çatdırılması ilə bağlı ciddi problemlər mövcuddur.

Bu teleradio qurumları bir qayda olaraq biznes fəaliyəti göstərir və daha çox gəlir əldə etmək məqsədi güdür. Halbuki onların əsas məramı reytinqini yüksəltmək, sağlam rəqabət mühitində lider mövqe əldə etmək və fəaliyyətini davam etdirmək üçün maliyyə imkanlarını da gücləndirməkdən ibarətdir.

Azərbaycan telekanallarında özünü qabarıq şəkildə büruzə verən problemlərdən biri də efirdə ictimai tələbat olmayan keyfiyyətsiz şou-biznes verilişlərinin sayının sürətlə artması ilə bağlıdır. Bu mənada, telekanallarda aparılan həftəlik monitorinqin nəticəsi acı təəssüf doğurur. Belə ki, bu telekanalların verilişlərinin orta hesabla 16 faizini (ATV-də 32, 3, "Lider"də 16, 4, "Xəzər"də 12, "ANS"də 11, 3 və "Space"də 8 faiz) şou-biznes verilişləri təşkil edir.

Bu verilişlərin böyük əksəriyyəti ictimai əhəmiyyət kəsb etmir, cəmiyyətdə neqativ tendensiyaların yayılmasına xidmət göstərir, gənclərin və yeniyetmələrin zövqünü, dünyagörüşünü korlayır.

Bu və digər problemlər müvafiq mütəxəssislərə, ekspertlərə cəmiyyətin tələblərini, ictimai marağını, tamaşaçıların istək və arzularını öyrənməli olduğunu, mövcud nöqsanların aradan qaldırılması istiqamətində əməli tədbirlər görülməsinə diqtə edir.

**Fikrimcə, telekanalların konsepsiyası, strateji hədəfləri, efir siyasəti ictimai maraqlarla uzlaşdırılsa, cəmiyyətin saflaşdırılması, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi istiqamətində məqsədyönlü iş aparılsa yuxarıda sadalanan problemləri qısa vaxt ərzində aradan qaldırmaq mümkün olar...**

● **Tarıyel VƏLİYEV,**
***əməkdar incəsənət xadimi***

## Ədəbiyyat

1. R.Mehdiyev. Azərbaycanın efir məkanı: problemlər və vəzifələr. "Azərbaycan" qəzeti - 2 oktyabr 2009-cu il.
2. "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanunu. B. 2002.
3. A.Qasımoov. Azərbaycan teleefiri dövlətin maraqlarına və xalqın mənafeyinə cavab verməlidir. "Azərbaycan" qəzeti - 7 oktyabr 2009-cu il.
4. "İctimai Televiziya və Radio Yayımı haqqında" Azərbaycan Respublikasının Qanunu. B. 2004.
5. E.Əliyev. Monitorinq araşdırmaları və reklam siyasəti. "Mədəni-maarif işi" jurnalı - 2009, № 4.
6. R.İsmayılov. Azərbaycan efir məkanına ictimai nəzarət artırılmalıdır. "525-ci qəzet" - 8 oktyabr 2009-cu il.
7. F.Xəlilzadə. Mənəviyyata güllə atanlara sərt mesaj. "Azərbaycan" qəzeti - 4 oktyabr 2009-cu il.
8. Z.Əhmədli. "Diqqət: mikrafon!". "Ədəbiyyat qəzeti" - 16 oktyabr 2009-cu il.
9. S.Qəndilov. Efir məkanımız sağlam ideyalara xidmət etməlidir. "Azərbaycan" qəzeti - 13 oktyabr 2009-cu il.
10. R.Əliyev. Azad söz və teleboru. "525-ci qəzet" - 14 oktyabr 2009-cu il.